**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

**STRATEJİ İNKİŞAF VƏ KEYFİYYƏT TƏMİNATI BÖLMƏSİ**

**"NDU tələbələrin gözü ilə" sorğusunun nəticələrinə dair**

# HESABAT

**Naxçıvan-2024**

Naxçıvan Dövlət Universitetinin Strateji inkişaf və keyfiyyət təminatı bölməsinin təşkil etdiyi “NDU, tələbələrin gözü ilə” sorğusunda təəssüf ki, çox az sayda tələbə iştirak etmişdir. Cəmi 262 sayda tələbə sorğuları cavablandırmışdır. Qeyd etmək lazımdır ki, sorğu anonim formada keçirilmiş və 12 açıq sualdan ibarətdir. Sorğunun posteri hazırlanmış, bütün fakültələrə posterlə birgə sorğu linkləri elektron formada göndərilmişdir. Fakültələrdə sorğu linkləri bütün tələbələrə çatdırılmışdır.




https://docs.google.com/forms/d/1vl_eO8vwoEGxWBua7SThr9oXiBxc8rrnU1rVw1y694Y/edit

Tələbərə verilən suallar əsasında yekun nəticə aşağıdakı kimi olmuşdur.




- **İdarəetmə strukturları və tələbə xidmətlərinin effektivliliyi**




- **Keçirilən dərslərin keyfiyyət göstəri**




- **Tələbə gənclər Təşkilatının tələbənin şəxsi inkişafında rolu**
-

**“Təhsil müddətində hansı texnologiyalardan və resurslardan istifadə etdiniz və onlar sizin təhsilinizə necə təsir etdi” sualına verilən cavabların**

- LMS və elektron jurnaldan istifadə etdik. Müsbət təsir göstərdi.
- Elektron jurnal və LMS dən istifadə olunur, təhsilimizə müsbət təsir göstərir şəklində müsbətyönlü oxşar cavablar verilmişdir.

**Diqqət yetirməli olunduğu cavadlardan biri “Heçbir texologiyadan istifadə etmədim. Memarlıq və mühəndislik fakultəsində elektron lövhə sinif sayına uyğun deyil”(irad) və “Memarlıq və mühəndislik fakültəsində olan avadanlıqlardan istifadə etdik və nəticəsində fakultə sərgisinə layihə hazırladıq. Təhsilə müsbət yönlü təsir edir”**(müsbətyönlü) şəklində Memarlıq və mühəndislik fakültəsi haqqında olmuşdur. Bununla bağlı Memamarlıq və mühəndislik fakültəsinə bildiriş göndərilmişdir. Məsələ alt komissiya müzakirə edilmiş və əsaslandırılmışdır. Protokol və çıxarışları bölməyə təhvil verilmişdir.

**“Universitetin ərazisində nə kimi düzəlişlər və təkmilləşmələr gözləyirsiniz” sualına verilən cavablar:** seçmə fənnlərin

seçilməsi ilə bağlı olmuşdur ki, bu da bir çox fakültələrdə təşkil edilib hesabatı hazırlanaraq alt komissiyada müzakirə edilərək protokollaşdırılmışdır. Protokol və çıxarışları bölməyə təhvil verilmişdir.

Bu suala demək olar ki, ümumilikdə bufeti olmayan fakültələrin bufetlə təmin olunması təklif edilmiş və həyətyanı sahələrdə oturacaq və istirahət zonası yaradılması təklif edilmişdir. Bu təklif də həyata keçirilmişdir. Tiib fakültəsinin və Sosial xidmət mərkəzinin həyətyanı sahəsində istirahət üçün açıq kafe quraşdırılmışdır.

**"Universitetin təhsil proqramları ilə əlaqədar təklifləriniz nədir"** sualına cavablar ustad dərslərinin artırılmasını və fənnlərin seçilməsi ilə bağlı təkliflər verilibdir ki, bu məsələ də yuxarıda əsaslandırılmışdır.

**"Təhsil müddətində hansı təcrübə-praktika imkanlarından istifadə etdiniz və bu sizin karyera hədəflərinizə necə təsir etdi"** sualına labarator məşğələlərin çatışmamazlığı ilə bağlı narazıçılıqlar bildirilmişdir. Bəzi tələbələr qazandığı təcrübələrlə layihələr hazırladığını ifadə etmişdir.

**"İdarəetmə strukturları və tələbə xidmətləri sizin üçün effektiv oldumu"** sualına

Bəli-225

Xeyr-37 şəklində cavablar olmuşdur.

**"Universitetin imkanları o cümlədən sinif otaqları, kitabxanalar və laboratoriyalar haqqında fikirlərinizi bölüşə bilərsinizmi"** sualına ümumilikdə müsbət fikirlər paylaşılmış, lakin kimya laboratoriyalarının təkmilləşdirilməsi məsələsi gündəmdədir.

Eyni zamanda elektronlaşmanın artırılması təklifi verilmişdir.

**"Universitetdə keçirilən dərslərin keyfiyyəti ilə bağlı fikirlərinizi bildirin"** sualına demək olar ki, 94% müsbət rəy bildirərək, gənc müəllimlərin daha yaxşı dərs tədris etdiyini bildirmişdir.

**"İxtisasınız üzrə kafedranın fəaliyyətinə münasibətiniz"** sualına 90% tələbə müsbət yöndə ümumi fikirlər bildirmiş, digərləri isə "orta" cavabını vermişlər.

**"Tələbə Gənclər Təşkilatının şəxsi inkişafınıza faydası varmı"** sualına cavablar

Bəli-65%

Xeyr-35% şəklində olmuşdur.

**Strateji inkişaf və keyfiyyət təminatı bölməsinin müdiri: S.Ş.Kərimova**